# Biz müharibə istəmirik...

## Lakin hərbə hazırıq

***Azərbaycan xalqı və dövləti bir qərinədir ki, müharibə şəraitində yaşayırdı. Vətəninə bağlı hər bir azərbaycanlının ürəyindəki ən böyük nisgil torpaqlarımızın işğal altında olması idi. Peşəmizdən, vəzifəmizdən asılı olmayaraq, hər birimiz cəbhə bölgəsində baş verən prosesləri diqqətlə izləyir, torpaqlarımızın sülh, yaxud müharibə yolu ilə azad ediləcəyi günü gözləyirdik. Bir çoxumuz heç bir faydası olmayan danışıqlar prosesinə güvənmir, nəhayət, bir nəticəyə varacağımıza inanırdıq.***

*Əgər kimsə, mən ordan-burdan eşidirəm, yenə də başlayıb ki, məsələ öz həllini tapmalıdır, bu münaqişə həll olunmayıb. Çox yanlış və təhlükəli yoldadırlar. Əgər həll olunmayıbsa, onda qoy bizə izahat versinlər, necə həll olunmalıdır. Biz hesab edirik ki, bu, həll olunub, artıq müharibə dövrü arxada qalıb. Amma buna baxmayaraq, biz müharibəyə hər an hazırıq və hazır olmalıyıq*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***



Ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində SSRİ-də gedən parçalanma prosesi, xalqların və dövlətlərin müstəqillik mübarizəsi elə bir həddə çatmışdı ki, hətta bir vaxtlar iki dünya müharibəsində zəfər qazanan, bütün dünyanı lərzəyə gətirən nəhəng imperiya da bu xalqların istiqlal əzmi qarşısında tab gətirə bilmirdi. Dağılmaq üzrə olan sovet dövlətinin daxilində gedən çaxnaşmalar xain xislətlərini gizlətməyə çalışan ermənilər üçün fürsətə çevrilmişdi. Onlar da bu fürsətdən istifadə edərək, əllərində olan bütün imkanlarla dinc xalqımıza divan tutmuş, torpaqlarımızı işğal etmişdi. SSRİ-nin mövcudiyyətinin son illərində başlanan işğal prosesi bir neçə il davam etdi. Yenicə müstəqillik qazanan Azərbaycan, bir tərəfdən çaqqal sürüsünün hücumuna məruz qalır, bir tərəfdən öz meşəmizin çaqqalları tərəfindən yağmalanırdı. Vəziyyət o həddə çatmışdı ki, hətta gənc respublikamız müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə idi. Məhz belə bir dövrdə xalqın tələbi ilə ulu öndər Heydər Əliyev hakimiyyətə qayıtdı. Bu, Azərbaycan üçün qaranlıq bir dövrün sonu, yeni parlaq bir gələcəyin başlanğıcı idi.

Əlbəttə, Heydər Əliyevin xalqımıza və respublikamıza göstədiyi xidmətləri bu kiçik yazıya sığışdırmaq mümkün deyil. Lakin ümumiləşdirsək, deyə bilərik ki, onun hakimiyyətə qayıdışı ilə ölkədə sabitlik təmin edildi. Həyata keçirilən hərtərəfli və labüd islahatlar nəticəsində bütün sahələr üzrə inkişaf dövrü başlandı. Təbii ki, ağlı başında olan heç kim torpaqlarının 20 faizi işğal altında qalan bir dövləti ordu quruculuğuna diqqət ayırdığı, silahlandığı və bütün bunların fonunda müharibəyə hazırlaşdığı üçün qınaya bilməzdi. Elə həmin dövrdən ölkəmizdə ən çox vəsait ayrılan, belə demək mümkünsə, ən çox diqqət və qayğı göstərilən sahələrdən biri də ordu quruculuğu oldu. Bu istiqamətdə görülən işlər günü-gündən genişləndirildi və ordunun maddi-texniki bazasının müasirləşdirilərək gücləndirilməsindən şəxsi heyətin gündəlik həyatındakı məişət problemlərinin, ailələrinin sosial rifahının təmin edilməsinə qədər şaxələndi.

Əsası ümummilli lider Heydər Əliyevin təşəbbüsləri ilə qoyulan inkişaf prosesi bu gün Prezident İlham Əliyev tərəfindən ləyaqətlə davam etdirilir. Dövlətimizin başçısı Prezident seçildiyi dövrdən danışarkən qeyd edir ki, o illərdə hələ siyasət meydanındakı çirkin oyunların, ikiüzlü münasibətlərin şahidi olmamışdı. Buna görə də, həmin dövrdə gedən danışıqlar prosesi zamanı verilən vədlərə inanır, bir dövlətin başçısının ictimaiyyət önündə yalan-yanlış vədlər verməyəcəyini düşünürdü. Lakin zaman ermənilərin və onların havadarlarının həqiqi simasını bir daha üzə çıxardı. Tezliklə məlum oldu ki, onların məqsədi torpaqları sülh yolu ilə qaytarmaq deyil, bacardıqları qədər vaxt qazanmaq, həmin ərazilərdə möhkəmlənməkdir.

Biz xalq olaraq hər zaman sülhün tərəfdarı olmuşuq. Dövlətimiz də bu istiqamətdə idarə olunur. Lakin qan tökülməsinin, iqtisadiyyata böyük miqyasda zərər verilməsinin əleyhinə olsaq da torpaqlarımızın düşmən tapdağı altında qalmasına göz yuma bilməzdik. Ermənilər isə bizim sülh tərəfdarı olmağımızdan sui-istifadə edir, vaxtaşırı cəbhə bölgəsində təxribatlar törədirdi. Bu azmış kimi, yeni ərazi iddiaları edir, lazım gələrsə, tanklarını Bakıya qədər sürəcəklərini bildirirdilər. Bütün bu haqsızlıqlar oğrunun bağırmasından başqa bir şey deyildi. Lakin bu dəfə doğrunun bağrı yarılmadı. Biz ermənilərin dünyaya satdığı, zaman-zaman özlərinin də inandığı yalanlara, miflərə və qəhrəmanlıq eposlarına məhəl qoymadan, deyim yerindədirsə, "başımızı aşağı salıb" ordumuzu gücləndirirdik. Prezidentimiz bu barədə danışarkən qeyd edir ki, hər nə qədər torpaqlarımızın sülh yolu ilə azad edilməsini istəsək də, ermənilərin xislətinə də yaxşı bələd idik. Biz mütləq hər vəziyyətə hazır olmalı idik.

Prezident İlham Əliyev bütün yüksək tirbunalardan Azərbaycanın haqq işini müdafiə edir, dünyaya çatdırırdı. Lakin dövlətimizin başçısı çox yaxşı bilirdi ki, Azərbaycan xalqının qəlbindəki Qarabağ həsrəti hansısa xarici qurumun, dövlətin ümidinə qala bilməz. Çünki 30 ilə yaxın müddət ərzində heç bir külək əsdirməyən, bir yarpağı belə tərpətməyən ATƏT-in Minsk qrupu və digər təşkilatların bundan sonra fırtına qoparacağı inandırıcı deyildi. Azərbaycan isə torpaqlarını işğaldan azad etməyə hazırlaşırdı. Bu elə bir hazırlıq idi ki, təkcə hərb sahəsini deyil, iqtisadiyyatı, siyasi münasibətləri özündə birləşdirirdi.

Prezidentimizin dəfələrlə qeyd etdiyi kimi, Vətən müharibəsində qazandığımız zəfəri təmin edən ən mühüm amillərdən biri də iqtisadi müstəqilliyimiz idi. Əlbəttə, torpaqalarımızı haqsız, qanunsuz və xüsusi vəhşiliklə işğal edən terrorçu Ermənistan dövləti qeyri-qanuni şəkildə silahlanarkən, ata-baba yurdumuzu talan edib "güclü" müdafiə sistemləri yaradarkən, biz də ağzımızı açıb "göydən gələcək" loxmanı gözləyə bilməzdik. Lakin arsenalımıza daxil etdiyimiz müasir silahlar, qırıcı təyyarələr, pilotsuz uçuş aparatları, zirehli texnika və başqa hərbi vasitələr bizə kimlərinsə, xarici qüvvələrin və ya havadarların bəxşişi deyildi. Biz bütün silah-sursatı dövlət büdcəsindən orduya və ordu quruculuğuna ayrılan vəsaitlə almışıq.

Və nəhayət, 2020-ci il sentyabrın 27-də xalqımızın uzun illərdir gözlədiyi həmin gün gəldi. Erməni təxribatına cavab olaraq başlanan əks-hücum əməliyyatları geniş vüsət aldı. Beləliklə, hərb və müstəqillik tariximizə qızıl hərflərlə həkk olunan 44 günlük Vətən müharibəsi başlandı. Düşmənin bir neçə ilə işğal etdiyi, 30 il müdafiə sistemləri quraraq möhkəmləndiyi torpaqlarımız Azərbaycan Ordusu tərəfindən ay yarım müddətində azad edildi.

Müharibədən sonra azad edilən torpaqlarda bərpa-quruculuq işləri başlasa da, müdafiə sistemini gücləndirmək öhdəmizə düşən ən mühüm vəzifələrdən biridir. Prezident İlham Əliyev bu məqamı xüsusi vurğulayır. Bildirir ki, biz bu günə qədər torpaqlarımızı işğaldan azad etmək üçün ordumuzu gücləndirir, arsenalımızı müasirləşdirirdiksə, bundan sonra əsas vəzifəmiz azad edilən torpaqların müdafiəsini təmin etməkdir. Azərbaycan Ordusu bu gün də gücləndirilir, müasirləşdirilir. Şəxsi heyət hər zaman olduğu kimi, Ali Baş Komandanın əmrlərini yerinə yetiməyə hazır vəziyyətdədir.

Xülasə, biz Vətən müharibəsindən əvvəlki dövrdə olduğu kimi, indi də müharibə tərəfdarı deyilik. Lakin bütün dünya gördü ki, Azərbaycan ayağa qalxanda onun dizi üstünə tökülmüş işğalçılar qırıntı kimi ətəklərimizdən dağılmağa məhkumdur. Ümid edirik ki, Ermənistan və onun havadarları ağıllarını başlarına toplayacaq və növbəti dəfə odla oynamayacaqlar. "Dəmir yumruq" yerindədir və hər zaman düşmənin başını əzməyə hazırdır.




**İmran ƏLİYEV,**
**"Xalq qəzeti"**